

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

23 iyul 2021-ci il
Cümə

1933-cü ildən çıxır
№ 27 (3540)

# İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRDƏ YENİ MƏRHƏLƏ BAŞLAYIR

## *Azərbaycan yaxın qonşuluq, dostluq və əməkdaşlıq prinsiplərinə sadiqdir*

İyulun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiyaya işgüzar səfərə gedib. Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında Prezident İlham Əliyevi Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşılayıblar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında görüş olub.



Qurban bayramı münasibəti ilə dövlətimizin başçısını təbrik edən Prezident Vladimir Putin gələn il iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin böyük bayram olacağını bildirib. Yaxın vaxtlarda Rusiyanın Azərbaycana nüfuzlu nümayəndə heyəti göndərməyi planlaşdırdıqlarını deyən dövlət başçısı əməkdaşlığın sənaye, nəqliyyat, infrastruktur və başqa məsələləri əhatə edəcəyini bəyan edib.

Koronavirusa qarşı mübarizədə fəal əməkdaşlıq edildiyini diqqətə çatdıran Prezident Vladimir Putin Azərbaycan ərazisində birgə vaksin istehsalının genişləndirilməsi üzərində iş getdiyini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev görüş zamanı iki ölkə arasında ilin birinci yarısında əmtəə dövriyyəsinin artdığını, nəqliyyat-tranzit məsələsində əməkdaşlığın fəal surətdə genişləndirildiyini bildirib. Şimal-Cənub nəqliyyat dəhlizi üzrə keçənilki illə müqayisədə təqribən 20 faiz çox yük daşındığını deyən dövlətimizin başçısı bu dəhlizin işlək vəziyyətdə olmasına da diqqət çəkib.

Koronavirusa qarşı mübarizədə köməyə görə təşəkkür edən Prezident İlham Əliyev “Biz Rusiyadan 200 min dozadan artıq “Sputnik V” vaksini almışıq və bu vaksinin yenə göndərilməsi gözlənilir. Bilirəm ki, onu almaq istəyənlərin sayı lap çoxdur. Ona görə ki, bu vaksin öz effektivliyini sübut edib və əlbəttə, yəqin ki, hamını təmin edə bilmək də çox çətindir. Lakin Sizin dostlarınız, tərəfdaşlarınız kimi bir daha təşəkkürümü bildirmək istəyirəm ki, biz vaksini alanlar arasında ilk sıralardayıq”, -deyə qeyd edib.

Dövlətimizin başçısı Rusiyada təhsil alan azərbaycanlı tələbələrin, Azərbaycanda isə rus dili bölməsində təhsil alan gənclərin ölkələrimizi dil, ünsiyyət və təhsil vasitəsilə bağladıqlarını deyib.

Regionda münaqişədən sonrakı vəziyyətə daimi diqqətinə, çox vacib və həssas məsələlərin həllində şəxsən iştirakına görə Rusiya Prezidentinə təşəkkürünü bildirən dövlətimizin başçısı görüşdə hərbi əməliyyatlardan sonra baş tutan təmaslar barədə danışıb: “Ötən səkkiz ay ərzində, zənnimcə, yanvar ayında Moskvada şəxsən görüşümüz və telefon söhbətlərimiz vəziyyətin sabitləşdirilməsi işində çox mühüm rol oynayıb. Biz qətiyyətlə münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsi əzmindəyik. Düşünürəm ki, ümumi səylərimizlə buna nail olacağıq”.

Qeyd edək ki, Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri iyulun 20-də başa çatıb.

# Azərbaycan strateji tərəfdaşdır



Bugünlərdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə səfəri gündəmin əsas mövzularından biri kimi diqqət çəkib. İyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı da mühüm əhəmiyyəti ilə seçilib.

Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı bildirib ki, gündəliyin mühüm hissəsi enerji təhlükəsizliyi ilə bağlıdır. Cənub Qaz Dəhlizinin sonuncu - dördüncü seqmenti olan Trans-Adriatik kəməri artıq istismara verilib. Yanvarın 1-dən bugünədək Azərbaycandan Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub. Bundan sonra da Avropa bazarına ixrac olunacaq təbii qazın həcmi artacaq.

Prezidentlər regionda münaqişədən sonrakı inkişafla bağlı məsələləri də geniş şəkildə müzakirə ediblər.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel isə bəyanatında Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa strateji xarakter vermək istədiklərini bildirib. O, infrastruktur layihələri, Avropa İttifaqının Şərq Tərəfdaşlığına həsr olunacaq Zirvə görüşünə hazırlıq, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası, İttifaqla regional əməkdaşlıq məsələlərinə diqqət çəkib.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Heç kim unudulmur, heç nə yaddan çıxmır

## *Əməkdaşlarımız şəhid və aztəminatlı ailələrə baş çəkiblər*





Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimizin rəhbərliyi, eləcə də Daxili İşlər Nazirliyi tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir.

Qurban bayramı ərəfəsində İsmayıllı, Zaqatala, Tərtər, Biləsuvar, Goranboy, Ağstafa, Cəlilabad Rayon Polis şöbələrinin əməkdaşları Vətən müharibəsində igidlik və qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan oğullarımızın ailələrinə və aztəminatlı ailələrə baş çəkib, qayğıları ilə maraqlanıblar.

Ziyarət zamanı şəhidlərin əziz xatirəsi yad edilib, onların qəhrəmanlıqlarından söhbət açılıb. Söhbət zamanı şəhidlərimizin müqəddəs amal uğrunda canlarından keçdikləri vurğulanıb, əziz xatirələrinin daim qəlbimizdə yaşayacağı qeyd olunub.

Sonra gətirilən bayram sovqatları ailələrə təqdim olunub.

Aztəminatlı və şəhid ailələri göstərilən diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.







# TƏHLÜKƏSİZLİK ƏSAS VƏZİFƏDİR

## "Təhlükəsiz Şəhər"in kameraları gecə-gündüz fəaliyyətdədir

**Cinayətkarlıqla mübarizə və ictimai asayişin mühafizəsində son elmi-texnoloji yeniliklərin tətbiqi ölkəmizdə sabitliyin təmin edilməsinə əvəzsiz töhfə verir. DİN-in "Təhlükəsiz Şəhər" avtomatlaşdırılmış idarəetmə sistemi müxtəlif qanun pozuntularına, cinayətlərə, fövqəladə vəziyyətlərə çevik reaksiya verən belə əsas innovativ vasitələrimizdən sayılır.**

2009-cu ildə istifadəyə verilən "Təhlükəsiz Şəhər" Avtomatlaşdırılmış İdarəetmə Mərkəzi ictimai təhlükəsizliyə nəzarəti daha da gücləndirmək məqsədi ilə yaradılıb.

**Daxili İşlər Nazirliyinin Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəis müavini, polis polkovniki Fərhad Mehdiyev** qəzetimizə bildirib ki, "Təhlükəsiz Şəhər"in müxtəlif təyinatlarla quraşdırılan kameraları 360 dərəcə



hərəkət etməsi və yaxud yalnız bir istiqaməti göstərməsi ilə fərqlənirlər. Texniki göstəricilərindən asılı olaraq elektron müşahidə vasitələri obyekti bir neçə dəfə yaxınlaşdıra bilir. Bu da axtarışda olan nəqliyyat vasitəsinin və ya şəxsin üz cizgilərinin aydın təsbit olunmasına kömək edir.

O, həmçinin qeyd edib ki, "Təhlükəsiz Şəhər" cinayətlərin açılması və vətəndaşların hüquqazidd əməllərdən qorunması üçün gecə-gündüz fasiləsiz xidmət göstərir. Baş verən hadisə kameralar vasitəsilə çəkilir və məlumat ərazidəki ən yaxın polis orqanına göndərilir. Bütün görüntülər arxivə ötürülür. Arxivin saxlanma müddəti 30 gündür. Bundan sonra, arxivdəki görüntülər avtomatik olaraq silinir. Bu vaxta qədər isə əgər cinayət baş verən hadisə barədə sorğu daxil olursa, həmin görüntülər istintaqa təqdim edilir.

Yeri gəlmişkən, bu ilin 6 ayı ərzində "Təhlükəsiz Şəhər"in müşahidə kameraları vasitəsilə 9 min 224 hadisə qeydə alınıb. O cümlədən, 8 min 658 avtomobil qəzası, 175 piyada vurulması, 109 yanğın, 89 asayişin pozulması və 193 digər hadisənin videoqeydiyyatı aparılıb.

Bundan başqa, nömrətanıma funksiyalı videogörüntülər vasitəsilə axtarışda olan 10 nəqliyyat vasitəsi saxlanılıb. Təhlükəsiz Şəhər Xidməti və ərazi polis orqanları ilə birgə aparılmış araşdırmalar nəticəsində 116 oğurluq, 19 narkotiklə bağlı, 18 soyğunçuluq, 18 avtomobil qaçırılması, 12 dələduzluq, 9 qəsdən sağlamlığa ağır zərər vurma, hərəsi 5 fakt olmaqla quldurluq, qəsdən adam öldürmə, xuliqanlıq kimi ağır cinayət hadisələrinin, ölüm və xəsarətlə nəticələnən 46 yol nəqliyyat hadisənin üstünün açılması da təmin edilib. Bu sistem vasitəsi ilə axtarışda olan 12 nəfər tutulub.

Qeyd edək ki, təhlükəsiz şəhər sistemi, MDB məkanında ən yüksək səviyyədə məhz Azərbaycanda qurulub. Qardaş Türkiyənin "Ekin" texnoloji şirkətinin quraşdırdığı elektron müşahidə sisteminin effektiv şəkildə tətbiq edilməsi üçün DİN mütəxəssisləri müxtəlif ölkələrin təcrübəsini öyrəniblər. Əvvəllər təhlükəsiz şəhərin kameraları yalnız əhalinin sıx hərəkətdə olduğu küçə və prospektlərdə, parklarda, idman kompekslərində quraşdırılırdı. Hal-hazırda isə həm kameraların sayı artırılıb, həm də xidmət daha keyfiyyətli kameralarla təchiz olunub. Xüsusən, üztanıma proqramları ilə təmin edilmiş kameralar gecə saatlarında istər işıqlandırılmış, istərsə də işıqlandırılmamış küçələrdə effektiv görüntü ala bilir.

"Təhlükəsiz Şəhər"in "gözləri" nəinki Bakı və ətraf kəndləri, ölkənin strateji əhəmiyyət daşıyan şəhərlərini də "görür". Hətta Vətən müharibəsi dövründə Ermənistanın sərhədyanı yaşayış məntəqələrini atəşə tutması da təhlükəsiz şəhər sisteminin kameraları vasitəsilə qeydə alınıb. Bu kameraları birləşdirən xətlər görüntünün tam təhlükəsiz şəkildə ötürülməsini təmin edir.

Fərhad Mehdiyevin sözlərinə görə, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz Şəhər" və "102" Xidmətinin iş prinsipini öyrənmək və tətbiq etmək üçün Belərus, Rusiya, Gürcüstan, Özbəkistan, Qazaxıstan və hətta avropa ölkərindən nümayəndə heyətləri dəfələrlə ölkəmizdə səfərlərdə olublar. Təbii ki, həmin ölkələrdə də elektronlaşdırılmış təhlükəsizlik sistemi var, ancaq Azərbaycanda faktların təhlil edilməsi, uçot-qeydiyyat işi, hadisələrin nəticəsi barədə operativ məlumatların toplanması və rəhbərliyə məruzə edilməsi kimi prosedurlar, sözün yaxşı mənasında, nümayəndə heyətlərində hər zaman heyrət doğurub.



# CƏMİYYƏTİN AYNASI




**Görkəmli maarifçi, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzetinin nəşrə başladığı tarix Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur.**

Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə yaratdığı "Əkinçi" qəzeti bütün Qafqazda əks-səda doğurub. Cəmi 56 nömrəsi işıq üzü görən "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük rol oynayıb, mütərəqqi ideyaları ilə Çar Rusiyasının hakim dairələrini narahat edib və iki il sonra fəaliyyəti dayandırılıb.

Beləliklə, Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasından 146 il ötür.

Azərbaycan jurnalistikası ötən 146 ildə müxtəlif vaxtlarda ağır sınaqlara məruz qalsa da tutduğu şərəfli yoldan dönməyib. Zəngin və şərəfli yol keçən Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsini yaşayır.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanda söz və mətbuat azadlığının təmin olunması həyatımızın demokratik istiqamətdə davam etdiyinin göstəricisidir.

# ONLAR BİZƏ YAZIRLAR Kİ...

**Yaxşını pisdən seçməyi bacaran, əyrini-əyri, düzü-düz görən sağlam düşüncəli vətəndaşlarımızın böyük əksəriyyəti onlara hər zaman təhlükədən yaxın olan polis əməkdaşlarının xidmətini görür və qiymətləndirirlər.**

Bugünlərdə DİN-ə ünvanlanan minnətdarlıq məktublarında da bunların öz əksini tapması vətəndaşlarımızın polisə olan inamın və etimadın bariz nümunəsidir.

DİN rəhbərliyinə ünvanladığı məktubunda asayiş keşikçilərinin xidmətindən razılıq edən 72 yaşlı **əmək veteranı Camal Abbasov** yazır ki: "İki ilə yaxın bütün dünyanı cənginə alan COVID-19 pandemiyası ilə əlaqədar yaradılmış karantin rejimində eləcə də İkinci Vətən savaşı dövründə polis əməkdaşları gecəli-gündüzlü xidmət apararaq asayişi qorumaqla bərabər vətəndaşlarımızın da sağlamlığının keşiyində dayandılar. 52 il pedaqoji fəaliyyəti olan müəllim kimi onu deyə bilərəm ki, Azərbaycan Polisinin fədakar xidməti biz vətəndaşların gözündən yayınmır və bu gün rahat və qorxusuz yaşayırıqsa, bu onların sayəsindədir.

Onu da qeyd edim ki, Ağcabədi RPŞ-nin əməkdaşları da həm cinayətkarlıqla, xüsusən də narkomaniyaya qarşı ciddi mübarizə aparır, asayişin, sabitliyin keşiyində ayıq-sayıq duraraq öz işinin öhdəsindən layiqincə gəlir.

Mən ailəm və öz adımdan DİN rəhbərliyi başda olmaqla Ağcabədi RPŞ-nin şəxsi heyətinə minnətdarlığımı bildirirəm."

"Bugünlərdə yaxınlarıma baş çəkmək üçün ailəmlə birlikdə İmişli rayonuna yola düşdük. Rayona çatar-çatmaz avtomobilimin təkəri boşaldı və biz yolda qaldıq. Bu vaxt yanımızdan ötən 90YP552 nömrə nişanlı YPX maşınının geri qayıtdığını gördüm. O, mənə yaxınlaşıb yolda durmağımızın səbəbini soruşdu. Maşınımın təkərinin boşaldığını və əlavə təkərin olmadığını bildirdim. Polis əməkdaşı: – Narahat olmayın, sizə bacardığım qədər yardım etməyə çalışaram-deyib, maşında yaranan nasazlığın aradan qaldırılmasına kömək etdi. Getdiyimiz yeri yaxşı tanımadığımdan ondan bizə yolu başa salmasını da xahiş etdim. Bu xahişim də təmin olundu. Onunla sağollaşanda bizə göstərdiyi köməkliyə görə minnətdarlığımı bildirdim. Asayiş keçikçisi isə vətəndaşlarımıza kömək, onlara çətin vəziyyətdə yardım etmək bizim borcumuzdur dedi. İmişlidən Bakıya xoş təəssüratlarla qayıtdıq. Bakıya çatdıqdan sonra öyrənə bildim ki, bizə köməklik göstərən İmişli RPŞ-nin Yol-Patrul Xidmətinin inspektoru, polis baş serjantı İlkin Salmanlıdır.

DİN rəhbərliyinə və vətəndaşların təhlükəsizliyini qoruyan Azərbaycan Polisinə təşəkkürümü bildirirəm". Bu məktubun müəllifi isə **Bakı şəhər sakini Saleh Məmmədovdur**.

Digər məktubu **Kürdəmir rayon sakini Qismət Məhərov** yazıb. Təqaüddə olan polis baş serjantı uzun illər polisin sıralarında xidmətindən qürur duyduğunu vurğulayır və bu gün Azərbaycan Polisinin sıralarında xidmət edən əməkdaşların vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəal iştirakına görə minnətdarlığını ifadə edir. Qismət Məhərov bir polislərə həsr etdiyi şeirini də göndərib.

**Daşkəsən rayon sakini Akif Rzayev** isə DİN rəhbərliyinə ünvanladığı məktubda etdiyi müraciətə çevik reaksiya verilməsinə və müraciətinin tez bir zamanda həll olunmasına, Daşkəsən Rayon Polis Şöbəsinin əməkdaşlarının xidməti və vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəal iştirakına görə minnətdarlığını ifadə edir.

**Redaksiyadan:** *Xoş sözlərə və səmimi duyğularını bizimlə bölüşdüklərinə görə hər bir məktub müəllifinə təşəkkür edirik.*

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Qəhrəmanlığın kitabı

## Polis leytenantının yeni kitabı nəşr olunub

**Polis Akademiyasının əməkdaşı, polis leytenantı Aynur Səfərlinin növbəti kitabı işıq üzü görüb. Onun "Qəhrəmanlıq tariximizin şanlı səhifələri" adlı yeni kitabı 2016-ci ildə "Dördgünlük müharibə" adı ilə tarixə düşmüş aprel döyüşlərinin qəhrəman şəhidlərinə həsr edilib.**




Kitabda şəhidlərin həyatına, döyüş yoluna, yaxınlarının onlar haqqında xatirələrinə, döyüşlərin canlı şahidləri – qazilər və kəşfiyyatçılarla müsahibələrə geniş yer verilib, eləcə də ölkə prezidentinin "Aprel döyüşləri" ilə bağlı imzaladığı fərman və sərəncamlar öz əksini tapıb.

DİN əməkdaşları ilə birlikdə müxtəlif vaxtlarda şəhid yaxnlarını ziyarət etmiş Aynur Səfərlinin aprel döyüşləri nəticəsində işğaldan azad edilən Cocuq Mərcanlı kəndində keçirdiyi görüşlər haqqında da yazılar da yeni nəşri oxunaqlı edir. Bu görüşlər zamanı çəkilən fotolar kitabdakı fikirləri maraqlı illüstrasiya olaraq tamamlayır.

Kitaba ön söz yazan **polis polkovnik-leytenantı Hafiz Təmirov** müəllifin "Qəhrəmanlıq tariximizin şanlı səhifələri"nin şəhidlərin xatirəsinə dəyərli töhfə olduğunu ifadə edib.

Qeyd edək ki, polis leytenantı Aynur Səfərlinin tərtibçiliyi ilə hazırlanan "Qəhrəmanlıq tariximizin şanlı səhifələri" müəllifin sayca on birinci kitabıdır. Bundan başqa, polis leytenantı elmi-tədqiqat və publisistik məqalələrlə ölkə daxilində, həmçinin xarici mətbuatda çıxış edir. Onun məqalələri Türkiyənin beynəlxalq indeksli jurnallarında çap olunur.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# DÖYÜŞ ƏMRİNİ GÖZLƏYİRDİK...

**Bizi Vətən müharibəsində qələbəyə aparan yol bir neçə nəslin həyatında unudulmaz iz qoydu. Əbədiyyətə qovuşan fədailərin şəhidlər xiyabanlarında məzarlarının sayı artdı, qazilərimizin sıraları genişləndi, amansız müharibənin fəsadları və nişanələri çoxaldı. Bütün bu ağrı-acılara baxmayaraq, mübariz xalq kimi zəfər zirvəsini inamla, dəyanətlə fəth etdik. Bu gün biz vaxtilə üzümüzə bağlı qalmış yollarla Ağdama, Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına, Kəlbəcərə, Hadruta, Şuşaya və digər yurdlarımıza gedirik.**



Vətən müharibəsi haqqında real təsəvvürə malik olmaq, döyüşçü missiyasını dərk etmək üçün şəhidlərin və qazilərin döyüş yoluna nəzər salmaq vacibdir.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbçisi, baş gizir, qazi, Xəyal Məmmədov Vətən müharibəsi iştirakçısıdır. O, 1989-cu il yanvarın 23-də o vaxtkı Qazı-Məmməd şəhərində (indiki Hacıqabul şəhəri) doğulub. Babası İkinci Dünya müharibəsindən qayıtmayıb, dayısı və əmisi isə Birinci Qarabağ müharibəsinin iştirakçıları olub.

Xəyal Hacıqabul şəhərindəki Fariz Cəbrayılov adına 2 saylı orta məktəbdə təhsil alıb. Özünün dediyinə görə, hüquqşünas ixtisasına maraq göstərib. Qəbul imtahanında kifayət qədər bal toplamadığından, tələbə olmaq, ali təhsil almaq arzusu reallaşmayıb.

2007-ci ilin oktyabrında Xəyal Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. O, Daxili Qoşunların Bakının Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsindən kiçik komandirlər kursuna göndərilib, kursdan qayıtdıqdan sonra hərbi hissədə patrul taborunun patrul bölüyündə manqa komandiri və taqım komandirinin müavini vəzifələrində "çavuş" hərbi rütbəsinədək yüksələrək xidmət edib. 2009-cu ilin aprel ayında müddətli həqiqi hərbi xidmətdən tərxis olunub.

Xəyal həmişə fikrinə diqqətlə yanaşdığı atası ilə məsləhətləşərək, həyatını hərbçi peşəsinə bağlamaq barədə qərar verib və Daxili Qoşunların sıralarına qayıdıb. 2009-cu ilin dekabrında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Həmin vaxtdan qoşunların Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda atıcı, əməliyyat taborunun əməliyyat bölüyündə taqım komandirinin müavini, təminat bölüyünün təminat taqımında ATS emalatxana rəisi, təminat bölüyünün təminat taqımında avtomatik telefon stansiyasının rəisi, xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunda radiotelefonçu-istehkamçı, istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı vəzifələrinə təyin edilib. Xidmətilə komandanlığın etimadını doğruldub.

O, 2011-ci ilin noyabr ayından 2012-ci ilin may ayınadək Daxili Qoşunların Ali Hərbi Məktəbinin nəzdindəki gizirlərin hazırlanması kursunda təhsil alıb, ona "gizir" hərbi rütbəsi verilib. 2018-ci ilin avqust ayının 18-də "baş gizir" hərbi rütbəsinə yüksəlib. 2015-ci ildə Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin təşkil etdiyi "Əsas humanitar minaaxtarma kursu"nu müvəffəqiyyətlə bitirib.

Vətən müharibəsi bir çox döyüşçü kimi onun da xatirələrində yaşadacağı bir səhifəsidir. Xəyal onu da deyib ki, hərbi formanı geyindiyi gündən nə vaxtsa döyüşə gedəcəyi, torpaqlarımızı işğal edən düşmənə qarşı vuruşacağı, şəhidlərin qisasını alacağı barədə həmişə fikirləşib. Xüsusi təyinatlının əsas amalı döyüş tapşırığını nəyin bahasına olursa-olsun yerinə yetirməkdir. Döyüş əmrini gözləyirdik - deyə qazi vurğulayıb.



2020-ci ilin oktyabr ayının 5-dən baş gizir X.Məmmədov Füzuli rayonunun ərazisində kapitan Cavid Tağıyevin (hazırda "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri) rəhbərliyi altında döyüş əməliyyatlarına cəlb olunub. "Beton post" adlanan ərazidə düşmənin artilleriya vasitələrinin atəşinə məruz qaldıqları şiddətli döyüşdən danışan qazimiz onu da bildirib ki, Füzuli rayonunun Kərimbəyli kəndi yaxınlığında bir neçə gün müdafiə mövqeyində dayanıblar. Oradan Cəbrayıl rayonunun ərazisinə hərəkət ediblər. Həmin istiqamətdə düşməndən azad olunmuş ərazilərdəki postlarda qarşıya qoyulan tapşırıqları yerinə yetiriblər. Oktyabrın son günündə Cəbrayıl rayonundan Xocavənd rayonunun Hadrut qəsəbəsinə göndəriliblər. Hərəkət istiqamətləri dəqiqləşdirilərək döyüşçülər ayrı-ayrı qruplara bölünüblər. Xəyal kapitan Taleh Rüstəmlinin (hazırda Daxili Qoşunların Bərdə rayonundakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri) tabeliyinə verilən qrupun tərkibində döyüş yolunu davam etdirib.

Xocavənd rayonunun çətin relyefə malik ərazilərindən keçməklə onun daxil olduğu qrup və digər qruplar Şuşaya istiqamət götürüblər. Bir neçə gün piyada yol qət edərək Şuşanın ətrafına yaxınlaşıblar. Şəhərin yaxınlığındakı əlverişli mövqelərin tutulması, düşmənin köməyə gələ biləcək qüvvə və vasitələrinin yolunun kəsilməsi məqsədilə qruplara aidiyyəti döyüş tapşırıqları verilib. Onların qrupu Şuşa ətrafındakı meşəlik ərazidə irəliləyərək Xankəndi yolunu nəzarətə götürmək üçün mövqe tutub. Həmin yerdə düşmənin canlı qüvvəsini atəş zərbəsinə məruz qoyublar. Noyabrın 5-də düşmən tankından bizim mövqeyə atılan mərminin partlaması nəticəsində qəlpələr Xəyalın üzünü, sağ ayağını və hər iki qolunu ağır yaralayıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18, 25 və 29 dekabr tarixli müvafiq sərəncamları ilə baş gizir X.Məmmədov "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Evlidir, iki oğul və bir qız övladı var. Qazinin bədənində hələ çıxarılmayan xırda qəlpələr, aldığı yaraların müəyyən fəsadları qalıb. Fədakar döyüşçüyə şəfa diləyirik.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Əməkdaşlığımız idmanda da sınandı




## *Futbol üzrə Avropa çempionatı polis təşkilatları ilə əməkdaşlığa töhfə verib*



Bu il futbol üzrə Avropa çempionatının Bakı şəhərində keçirilən oyunları yüksək təhlükəsizlik şəraitində baş tutan növbəti beynəlxalq kütləvi tədbir kimi yadda qaldı. Eyni zamanda, çempionat daxili işlər orqanları üçün də dünyanın polis təşkilatları ilə əməkdaşlıq baxımından xüsusilə əlamətdar oldu.

Daha öncədən də xəbər verdiyimiz kimi, həmin ərəfədə futbol üzrə Avropa Çempionatında ev sahibliyi edəcək ölkələrdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini, fəaliyyətin birgə əlaqələndirilməsi məqsədilə Niderland Krallığının Haaqa şəhərində yerləşən AVROPOL-un mənzil-qərargahında Beynəlxalq Polis Əməkdaşlığı Mərkəzi yaradılmışdı. Bu Mərkəzin Azərbaycanla əlaqələri Daxili İşlər Nazirliyində fəaliyyət göstərən "Milli Futbol Məlumat Məntəqəsi" üzərindən qurulurdu.



AVROPOL-a əlaqələndirici şəxs kimi ezam olunan **Beynəlxalq Əməkdaşlıq İdarəsinin baş inspektor-tərcüməçisi, polis kapitanı Vaqif Əzizov** bu məsələlərlə bağlı "Polis"in sullarını cavablandırarkən bildirib ki, sözügedən Məntəqə beynəlxalq miqyaslı futbol oyunları ilə bağlı ümumi məlumat mübadiləsinin aparılması üçün birbaşa və yeganə əlaqə qismində fəaliyyət göstərib. Beynəlxalq Polis Əməkdaşlığı Mərkəzində müvafiq ölkələrin polis əməkdaşları ilə yanaşı AVROPOL-un, İNTERPOL-un və UEFA-nın təhlükəsizlik şöbələrinin əməkdaşları da təmsil olunublar. Burada xidmətin təşkili, təhlükəsizlik, mühafizə risklərilə bağlı bilik və təcrübə bazasının formalaşdırılması kimi işlər həyata keçirilib.

Mərkəzdəki asayiş keşikçiləri oyunların öncəsini, oyun prosesini və nəticələri təhlil edərək, ümumi məlumatları müvafiq bazaya daxil ediblər. Bu məlumatlar tamaşaçı sayı, riskli azarkeşlər, əməliyyat məlumatları, polis nümayəndə heyətlərinin ezamı kimi zəruri məsələləri əhatə edib.

Polis kapitanı Vaqif Əzizovun sözlərinə görə, ölkəmizin ev sahibliyi etdiyi oyunlar zamanı təhlükəsizlik tədbirlərinin təşkili ilə bağlı Mərkəzə, eləcə də DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına məlumatlar verilib. Bir sözlə, oyunlar zamanı ictimai asayişin qorunmasında və hüquqpozmalara qarşı profilaktik tədbirlərdə birgə iştirak etmək məqsədilə təmsilçi ölkələrin polis əməkdaşları ilə sıx əməkdaşlıq əlaqələri qurulub, operativ məlumat mübadiləsi aparılıb.

Qeyd edək ki, səmərəli fəaliyyətlərinə görə Mərkəzə ezam olunan polis əməkdaşlarına AVROPOL, IPCC və Avropa Şurasının "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma" Konvensiyasının Daimi Komitəsi tərəfindən sertifikatlar təqdim edilib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Əməyimiz hədər getməsin

COVID-19 infeksiyasının ölkəmizə çatması ilə üzərinə düşən vəzifələri həyata keçirməyə başlayan daxili işlər orqanlarının əməkdaşları qəfil yaranmış mürəkkəb vəziyyətə çox tez uyğunlaşdılar. Sərt karantin dövründə SMS icazələrin yoxlanılmasından tutmuş, profilaktik-nəzarət tədbirlərinə, yaşayış yerini tərk edən aktiv virus daşıyıcılarının aşkar edilməsi və hüquqi cəza tədbirlərinin tətbiqinə qədər genişmiqyaslı mübarizənin avanqardına çevrildilər. Elə bugünlərdə də sağlamlığımızı qoruyan həkimlərimiz kimi, pandemiya ilə mübarizədə əməkdaşlarımız birbaşa iştirak edirlər.



Mütərəqqi haldır ki, mübarizənin hazırkı mərhələsində istər cəmiyyət, istərsə polis daha hazırlıqlıdır. Ən əsası virusla mübarizədə "nə etməli" sualının cavabı hər kəsə bəllidir. Bundan başqa, xəstəlik yayılmağa başlayanda "bundan sonra virusla birlikdə yaşamağı öyrənməliyik" kimi infeksionistlər tərəfindən səsləndirilən fikirlər artıq gerçəkliyə çevrilir. Görünür, bunun nəticəsidir ki, əvvəlki ictimai panika da yoxdur. Üstəlik, vaksinasiya epidemioloji zəncirin qırılması baxımından nikbin prespektiv vəd edir.

Ancaq virus bəşəriyyətin sonadək optimist olmasına da imkan vermir, onun sürətlə yeni ştamları yayılır. Xüsusilə, yoluxdurma potensialına görə daha təhlükəli olduğu bildirilən delta ştammının ölkəmizdə də qeydə alınması hər birimizdən qaydalara ciddi əməl etməyi, daha məsuliyyətli davranmağı tələb edir.

Müəyyən edilmiş qaydalara laqeyd münasibət tibb işçilərinin və polisin bütün əməyinin hədər getməsinə, epidemioloji vəziyyətin yenidən kritik həddə çatmasına səbəb ola bilər. Karantində yumşalmalar olsa da, məlum olduğu kimi, ümumi qadağalar qüvvədə qalır. Toy edən, məclis quranlar müəyyən edilmiş qaydalara daha ciddi riayət etməlidir, çünki virusun yayılma riski kütləvilik şəraitində daha da artır. Delta ştammı kimi mutasiyaya uğramış virusun yeni növləri üçün belə tədbirlər "göydəndüşmə" sayılır.

Mümkün riskləri nəzərə alan polis ictimai nəqliyyatda və şadlıq saraylarında el şənliklərinin mövcud qaydalara əməl edilməsinə nəzarət məqsədilə profilaktik maarifləndirici tədbirləri davam etdirir. Bununla belə, etiraf etməliyik ki, bu bəlanın öhdəsindən gəlməyin ən optimal yolu vətəndaşların qaydalara könüllü əməl etmələrindən keçir. Bunu bir ildən artıq sürən "viruslu həyat təcrübəsi" də təsdiq edir. Bir nəfər məsuliyyətsizliyə, laqeydliyə yol verirsə, bu, çoxlarının sağlamlığını, həyatını təhdid edir. Deməli, bunu görməzlikdən gəlməyə heç kəsin haqqı yoxdur.

*M.Rəşad*

# HƏYATINI UCUZ ÖLÜMƏ BAĞLAYANLAR...

**"Ağ ölüm" – Narkomaniya sağlamlığa zərər vurmaqla bərabər cinayətkarlığın artmasına da səbəb olur.**



Təəssüflər olsun ki, bu gün narkotik maddələrin aludəçilərinin çoxu gənc nəslin nümayəndələridir. Narkotikin ilk istifadəsindən sonra onun xoş hisslər, enerji yaratdığına inanan gənclər aldadıcı təsirin yanlış olduğunu fikirləşmədən həyatlarını bu "sevdaya" bağlayırlar. Bir müddət keçdikdən sonra bu bəlanın pəncəsindən yaxa qurtarmağa çalışanlar olsa da, atılan addım heç zaman müsbət nəticə vermir. Beləliklə, bu "sevdaya" düşənlər sağlamlığını itirməklə bərabər ona əli çatmayanda intihara, cinayətə də əl atırlar. Ən təəssüflüsü isə bu bəlaya düçar olanların sayının artmasıdır.

Son vaxtlar sosial şəbəkələrdə "ölüm" satışı ilə məşğul olanlar narkotik vasitələri təbliğ etməklə yeniyetmələri və gəncləri "ovlamağa" çalışırlar. Bunun qarşısını almaq üçün DİN-nin müvafiq qurumları onların aşkar edilərək məsuliyyətə cəlb olunmaları məqsədilə bütün zəruri tədbirləri həyata keçirir. DİO tərəfindən demək olar ki, hər gün narkotiklə bağlı 10-larla faktın üstü açılır.




Belə ki, bu ilin 6 ayı ərzində 1 ton 843 kiloqram narkotik vasitə dövriyyədən çıxarılıb, 140 ton narkotik xassəli bitki məhv edilib. Bu da keçən ilin 6 ayı ilə müqayisədə 776 kiloqram çoxdur.

ABŞ-da "meth lab" , "crystal meth", Rusiyada "met" , "steklo" adları ilə gündəmə gəlmiş metamfetamin adlı narkotik tərkibli sintetik maddə - "şüşə" indi "patı" adı altında ölkəmizdə də yayılıb. Gəncləri zəhərləyən bu vasitə digər narkotik maddələr kimi 6-24 saat davam edən güclü eyforiya, asılılıq yaratma qabiliyyətinə malikdir və istifadəçilərin dişlərinin tez bir zamanda çürüməsinə, gözaltı hissənin qaralmasına, ciddi çəki itkisinə, mədənin zədələnməsinə və s. səbəb olur.

Bu məqsədlə də aktiv sosial şəbəkə istifadəçiləri bugünlərdə "Narkotikə yox de! Həyata bağlan, ailəni düşün, mübarizə apar!" şüarı altında videoçarx hazırlayıb ictimai baxışa çıxarıblar. Onlar bu videoçarx vasitəsilə müraciət etdikləri auditoriyaya narkotik istifadəçisi və ya onun satışı ilə məşğul olanlar barədə polisə məlumat verməlrı barədə çağırış edirlər. Yeri gəlmişkən, onu da qeyd edək ki, bu cür məlumatları təqdim edənlərin anonimliyinə təminat verilir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# PARLAQ QƏLƏBƏ




**DİN İdman Cəmiyyətinin yetirmələri hər zaman Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasına öz töhfələrini veriblər. Bu gün də güclü rəqib olduqlarını nümayiş etdirən idmançılarımız bayrağımızı böyük arenalarda dalğalandırır, himnimizi səsləndirirlər.**

Belə ki, bugünlərdə Türkiyənin Adana şəhərində Litvanın KOK (King of Kings) təşkilatının turniri keçirilib.

DİN İdman Cəmiyyətinin yetirməsi, Milli yığma komandanın kapitanı, WAKO üzrə Dünya və Avropa çempionu, Prezident mükafatçısı Ramal Aslanov da bu turnirə qatılıb. O, iki illik fasilədən sonra döyüşə çıxıb. Liviyanı təmsil edən rəqibi Mousa Masoudu elə ilk raundda nokautla məğlub edib.

Qeyd edək ki, idmançımız peşəkar rinqdə 42 rəsmi döyüş keçirib. Onlardan 13-ü nokautla olmaqla, 37 qələbə qazanıb.

Onu da bildirək ki, Ramal Aslanov Azərbaycan Respublikasının Kikboks Federasiyasının milli yığma komandasının böyük məşqçisi, əməkdar məşqçisi, ***DİN Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyevin tələbəsidir.***

*R.Əliyeva*



# Ağır cinayətin üstü açılıb

**Abşeron rayonu Qobu qəsəbəsində bir neçə gün əvvəl baş verən ağır cinayətin üstü açılıb. Qəsəbə sakini Ülfət Höccətovun yaşadığı evdə yanmış meyidinin aşkar olunması ilə bağlı Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinə məlumat daxil olan kimi dərhal əməliyyat qrupu və rayon prokurorluğunun əməkdaşları hadisə yerinə göndərilib.**

Araşdırma zamanı təxminən 100 kv.m sahəsi olan, 1 mərtəbəli, 4 otaqlı evin yandığı, həyətin darvazasının açıq olduğu aşkar edilib. Həmçinin evin yaxınlığında qan izlərinin olması polis əməkdaşlarında hadisənin qəsdən törədildiyinə dair əsaslı şübhələr yaradıb. Ü.Höccətovun yanmış meyidinin müayinəsi zamanı sinə və kürək nahiyələrində kəsici-deşici xəsarətlərin olması aşkar edildiyindən onun hadisədən əvvəl qətlə yetirildiyi müəyyən edilib. Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarışı İdarəsi, Abşeron Rayon Polis İdarəsinin, Qobu Polis Bölməsinin və rayon prokurorluğunun əmədaşlarının birgə həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Lənkəran rayon sakini Cahangir Ramazanov saxlanılaraq prokurorluğa təqdim edilib. İlkin araşdırmalar zamanı onun qətl hadisəsini Ü.Höccətovla şəxsi münasibətlər zəminində aralarında yaranan münaqişə əsnasında törətdiyi məlum olub. C.Ramazanov hadisəni əvvəlcədən planlaşdırdığını və qətli törətdikdən sonra üst geyimini dəyişdiyini bildirib.

Faktla bağlı Abşeron rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Qətl hadisəsində başqa iştirakçıların olub-olmamasının müəyyən edilməsi istiqamətində zəruri əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*Anar Qafarov,*
*polis mayoru*




**Xətai RPİ 34-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində iki avtomobildən ümumilikdə 320 manat pul oğurlamaqda, iki avtomobildən isə oğurluğa cəhd göstərməkdə şübhəli bilinən Cəlilabad rayon sakini N.Hüseynov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Abşeron RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 181-ci (quldurluq) maddəsi ilə axtarışda olan A.Qasımov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 7 nəfər saxlanılıb. Bu əməliyyatlar zamanı ümumilikdə 2 kiloqramdan artıq heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Səbail RPİ-yə** müraciət edən Bakı şəhər sakini R.Ramazanov iyulun 14-də bir qadının zəng edərək onun müdiri olduğu marketdə çəkdiyi siçovulu sosial şəbəkədə yayacağı ilə hədələyib 300 manat tələb etdiyini bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hədə-qorxu ilə pul tələb etməkdə şübhəli bilinən Lənkəran rayon sakini S.Tağızadə müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

Cari il iyunun 13-də **Ağcabədi RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş Z.Hacıyevin idarə etdiyi "VAZ-2106" markalı avtomobilə baxış zamanı "Makarov" markalı tapança və 100 qram heroin aşkar edilərək götürülmüşdür. Z.Hacıyeve tapançanı satmaqda şübhəli bilinən Ağcabədi sakini H.Qasımov da müəyyən edilərək saxlanılmış və ondan daha bir "Makarov" markalı tapança və 16 ədəd patron götürülmüşdür. H.Qasımovun ətrafında aparılmış tədbirlərlə onun "Makarov" markalı tapançanı və 2 ədəd patronu satmaq üçün başqa bir şəxsə verməsi də müəyyən edilmişdir.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini A.Mirzəyev idarə etdiyi "VAZ-2106" markalı avtomobildə həmyerliləri F.Babayeva və N.Tağıyevlə birgə rayonun Yuxarı Ağalıkənd kəndi ərazisində saxlanılmışlar. Onlardan 7 kiloqram 715 qram heroin, 2 kiloqram tiryək, 1 kiloqramdan artıq metamfetamin və 190 qram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Qobustan RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Ş.Kərimova məxsus 8 baş inəyi oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri A.Qarayev və S.Eyyubov saxlanılmışlar.

# "Xaşxaş-2021" tədbirləri davam etdirilir

Yevlax RPŞ və RMŞ-nin əməkdaşları şəhər sakini M.Məmmədova məxsus həyətyanı sahədən 13 ədəd, Abşeron RPİ-nin əməkdaşları Saray qəsəbə sakini F.Vəliyevə məxsus həyətyanı sahədən 19 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu, Bərdə RPŞ-nin əməkdaşları Alaçadırlı kənd sakini Ə.Məmmədova məxsus həyətyanı sahədən 144 ədəd çətənə kolu və 960 qram qurudulmuş marixuana, Xaçmaz RPŞ-nin əməkdaşları Niyazoba kənd sakini S.Ərzimanova məxsus həyətyanı sahədən 74 ədəd çətənə kolu, 8 kiloqram 383 qramdan artıq marixuana, evindən isə 2 ədəd qurumuş çətənə kolu, Salyan RPŞ-nin əməkdaşları şəhər sakini, əvvəllər məhkum olunmuş A.Axundova məxsus həyətyanı sahədən 27 ədəd çətənə kolu və 14 kiloqram 775 qram marixuana, Qaraçala kənd sakini A.Tağıyevdən 10 qrama yaxın marixuana, yaşadığı evin həyətinə baxış zamanı isə kultivasiya yolu ilə yetişdirilmiş 8 ədəd çətənə kolu, Astara RPŞ-nin əməkdaşları Sərək kənd sakini A.Süleymanova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 29 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı isə müvafiq sənədləri olmayan "İJ-16" markalı ov tüfəngi, 3 ədəd patron və 1 ədəd patrondaş aşkar edərək götürmüşlər.

İmişli RPŞ-nin əməkdaşları tərəfindən Gövhərli kəndi ərazisində 118 ədəd, Kəlbəcər RPŞ-nin əməkdaşları tərəfindən şəhər ərazisində 3 ton çəkidə 3300 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

*Natiq Cavadov,*
*polis mayoru*

## İyul ayının 14-dən 21-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 375 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 26 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 156, o cümlədən borclu şəxs qismində axtarışda olan 100 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 14 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 262 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9450
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik